# HAQQIN YOLU ANDIMIZ

***Əli ibn Abu Talibə sonsuz sevgimlə və atamın xatirəsinə ehtiramla məsnəvi-poema***



*Əli Rza XƏLƏFLİ*

Sözüm bitməz vəsf edəm, haqq üzünü görəni,
Qəlbində sevgisinin sarayını hörəni;
Kəlməsində kəsəri, hökmündə ədaləti,
Cəsarətdə Əlidir - türk oğlu, türk ərəni.

Yön tuta əbədiyə, taxtdan uca görərsən,
Göylərdən bəla gəlsə, baxtdan uca görərsən.
Axtarsan axır-əzəl, vaxtdan uca görərsən,
Meydanda hər savaşa sinəsini gərəni.

Qürurunu qoruyar, hər bir yadın içində,
Şərəfini tox tutar min bir adın içində.
Söyləməz «canım haray», yansa odun içində,
Bəxtinə qurd ulayar gözü gəzsə börəni.

Azərbaycan ellidir, əsli Qarabağlıdır,
Yurdu cənnət məkanlı, aranlıdır, dağlıdır.
Tanıyar öz yolunu - soya, kökə bağlıdır,
Aşar, ötər sədləri, keçər bəndi-bərəni.

Ocaq çatsam sinəmdə qələmimə köz gələr,
Həzrət Əli eşqinə, Zal adına söz gələr.
Misra-misra hikməti sıralanar, düz gələr,
Xələfli dastan yazar, qoy oxusun törəni.

Allahım, hər yazıda səni yada salmasam,
Təbim də küsər məndən mən eşqinə dolmasam.

Küsən ilham pərimin könlünü necə alım,
Səndən rəvac gəlməsə qanadlanmaz xəyalım.

Dilim kəlmə gətirməz, sözlər də uçub gedər,
Bəxtim üzümə gülməz, yaddaşım köçüb gedər.

İşıq göndər qəlbimə, biganə qalma mənə,
Bu qaranlıq hücrəmə bir işıq düşsün yenə.

Yol aç doğma yerlərə könlümün quşu uçsun,
Qanad çalsın göyündən, ağılı, huşu uçsun.

Allahım, çağır məni, göylərdə qanad çalım,
Quşqonmaz zirvələrə mən xəyalən ucalım.

Görüm doğma yerləri, bir az kövrəlim, dolum,
Yağış ötsün, dumandan, çəndən açılsın yolum.

"Kəsilməyən kişnərti"... tariximin qan adı,
Yazıldı bu torpağın faciəsi, fəryadı.

"Ey könül" sədasıyla Allahıma üz tutdum.
Mən bir olan Allahın ətəyindən düz tutdum.

Mən Əlinin adıyla bəzədim əsərimi.
Sözümün ovxarında yoxladım kəsərimi.

Xocalıdan gələn səs söz oldu qan rəngində.
Qarabağın dərd dolu səsində. ahəngində.

"Kəsilməyən kişnərti" dedi sözə meydan ver,
Qoy yansın haqq ocağı, oda, közə meydan ver.

Sözdə də meydangirlik bir cəsarət istəyir,
Mənaların içində söz məharət istəyir.

Yazdım Əli eşqini - mərdlik, ərənlik olsun,
Hər kəsin göz önündə örnək, görənlik olsun.

Allahın cavan şiri... Əli döndü dastana,
Harda adı çəkildi. söz döndü gülüstana.

Əbdavuddan nə qaldı... lənət olsun adına,
Ruhu da odda yanar, kimsə yetməz dadına.

İndi qəfəs içində Xocalı cəlladları,
İndi imdad diləyir ünvanları, adları.

Cəbrayıldan başladı qələbənin yolları,
Azadlığa açıldı Qarabağın qolları.

Xələfli, gözün aydın Cəbrayıl azad olub,
O günlərdə öz adım ən populyar ad olub.

Yaddaşıma güvənib itmiş yola çıxıram,
Ayrılığı, həsrəti bitmiş yola çıxıram.

Şəhid olan yaddaşın həsrəti var gözümdə,
Gözlərimin yağışı çiçəklənir sözümdə.

Qara daş abidəsi... çoxları pir bilirdi,
Pir bilənlər inamla ziyarətə gəlirdi.

Güllələrdən nişan var qara daşın üstündə,
Hərəsi bir yaradır daş yaddaşın üstündə.

Bəs niyə çağırmadın, daş qardaşı gələ bir,
Yağa yağı başına göy üzündən gülə bir,

Qənim oldu yağıya, bizim Əli andımız.
Əli gücü göstərdi daşımız, sapandımız.

* * *

Mən yenə də yoldayam, yollar məni yormayıb,
Arzum, sözüm, istəyim son cavabı sormayıb.

Öz adıma güvəndim, könlüm Əli öyəndi,
Rza şəhid işığı... Musa Yaqub deyəndi.

Atam keçən yolları cığır-cığır anıram,
Sinəmə köz basılıb korun-korun yanıram.

Nəfəsini duyuram... əsəni görməsəm də,
Ruhun məni çağırır, mən səni görməsəm də.

Mən səndən ayrılmadım, bir yoldayıq, ay ata,
Xatirəndən, sözündən gəlirəm tuta-tuta.

...İki imam adını əmanət verib atam.
Ən ülvi istəyini adımdan dərib atam.

Cəbrayıl Ata yolu çıxdım dağın başına,
Sevgimi nəzir verdim torpağına, daşına.

Ey gəncliyim, hardasan sani gəzir gözlərim.
Bəzək vursun adına sətir-sətir sözlərim.

Hardasan gözə görün, dastan yazım, söz əkim,
Xatirələr içindən çıx gəl şəklini çəkim.

Ürəyimin səsidir misralarda söz olan,
Bu dağlanmış dağlardır sinəm üstə köz olan.

Ayrılıq taleyimdən bir qərinə qopardı,
Sinəm üstə od qoyub, gəncliyimi apardı.

Həsrətin acığına könlüm nəğmə oxuyur,
Duyğularım, vüsalın xalısını toxuyur.

Qəlbimdə zaman-zaman söz eşqimi ağlayan,
Yurdun yara yeridir gözlərimi dağlayan.

Salam, ötmüş qərinəm, salam yaddaşım, dərkim,
Salam, gözü yol çəkən qərib görkəmim, görküm.

Salam, bəxtim, taleyim, mən vətənə gəlmişəm,
Həsrətləri yandırıb dərd ütənə gəlmişəm.

* * *

Türbələrə baş əyib Binnatlını keçirəm,
Xatirə yığnağında yaddaş meyi içirəm.

Nəzərlərim oxşayır yerin, yurdun gəzini,
Gözlərimlə gəzirəm mən atamın izini.

"Zalın yurdu"... tanıdım... yaddaşın fəryadı var,
Yurdunda izi qalan... yaddan çıxmaz adı var.

Adlar yurdu qoruyan xatirədir, yaddaşdır,
Yurd deyilən özü də hər cığırdır, hər daşdır.

Dayanmışam, baxıram, küməmiz olan yerdə,
Xəyalım dolandıqca boğuluram qəhərdə.

Çağırsam kim hay verər, kim deyər bir bəri yen,
Kim deyər kimsən axı, bəri gəl, təhəri yen.

Elə bil ki, səs gəlir... dillənir yurdun özü,
Çəkirəm nəfəsimə hər gələn səsi, sözü.

Nə yaman gec gəlmisən, vaxt söndürüb ocağı,
Gəl, səni əziz tutar yenə yurdun qucağı.

Bəs atan, anan hanı?! Səs məni oda tutur,
Bəs nə deyim?! Nitqimi qan tutur, qada tutur.

Necə deyim vaxt yedi, illər aldı əlimdən,
Hər adın yanğısı var, səsləndikcə dilimdən.

Haqqın yolu andımız olub elə əzəldən,
Gərək hər kəs yolunu yaxşı bilə əzəldən.

Atamdan vəsiyyətdir, haqqa güvən, haqqı bil,
Unutma, harda olsan, haqq səndən uzaq deyil.

Atam özü deyərdi, yolum Əli yoludur,
Peyğəmbərin bəyanı, haqqın vəli yoludur.

Mənim də andım budur, bu bəyandan keçmişəm,
Müdrikləri ruhuma badə bilib içmişəm.

Dirili Qurbanidən aldığım buta payı,
İşıq oldu odama, qurdum sənət sarayı.

Mən Seyid Nigarini ürəyimlə oxudum,
Əli eşqi adına söz xalısı toxudum.

Hacı Bektaş Vəlini, Yunusu dərs bilmişəm,
Haqq yoluna işığı Əli bilib gəlmişəm.

Əli eşqi adına sözüm çağlayıb gəlir,
Kəsir bəndi-bərəni, şəri bağlayıb gəlir.

Misralar inci-inci qələmimdən süzülür,
Fikirlər sətir-sətir kağız üstə tökülür.

Bu dünyanın işləri zəlalətdir deyirəm,
Dərdin, qəmin içində... məlalətdir deyirəm.

***(Davamı 5-ci səhifədə)***

*(Əvvəli 4-cü səhifədə)*

İki üzlə yaşamaq rəzalətdir dünyada,
Tamahına qul olmaq kəsalətdir dünyada.

Bir çiçəyi qorumaq ədalətdir, ya Əli,
Qəlblərə işıq salmaq hilalətdir, ya Əli.

Ayaq üstə duranlar doğru, düzü soraqlar,
Düşüncədən kasada kara gəlməz yaraqlar.

Oxunmayan kitablar cəhalətə yol açar,
Mənafelər, maraqlar ayrılığa qol açar.

Dərd verər insanlığa təfriqələr, tərəflər,
Mərifətdən keçməsə ucalanmaz şərəflər.

Hər çətində, hər darda özün varsan yanımda,
Hara dönsəm görürəm, sönməz nursan yanımda.

Xəyal-xəyal gördüyüm səyahətsən, ya Əli,
Hər çətinə yol bilən siyasətsən, ya Əli.

Gəzmişəm könülləri sözümdə, bəyanımda,
Sözümün kəsərinə özünsən həyanımda.

Qanımda dolanırsan, mənim könül varımsan,
Sazaqlar ütsə məni, qəlbimdə baharımsan.

Doğru, düzün önündə itaətsən bilirəm,
Avazın qəlbimdədir, qiraətsən bilirəm.

Ötən əsrin sonuna altmış bir il qalırdı,
Bolşevizmin maşını yenə canlar alırdı.

Qana həris zamanın gözü doymur, dolanmır,
Heç içdiyi qanlardan bir ürəyi bulanmır.

Qara-qorxu altında yaşayırdı insanlar,
Hər yana daraşmışdı insanlığı busanlar.

Xələfli kəndini də daradılar içindən,
Baş tərpədən bir kimsə sağ qalmadı biçindən.

Hərəni bir ad ilə göndərdilər ölümə,
Allah özü heyrətdə qalmışdı bu zülümə.

Göy üzünü, səmanı tutmuşdu qara bulud,
Aramsız qan yağırdı tarixə yara bulud.

Atamın atasını apardı acı yellər,
İnsanlığın qənimi acıdan, acı illər.

Səksən beş il əvvəlin yarası göynəmdədir,
Yarasından göynəyən bilər ki, göynəm nədir.

Dörd uşaqla nənəm də kimsəsiz, darda qaldı,
Ömrünün xoş günləri ötmüş baharda qaldı.

Babam Əziz son dəfə baxdı balalarına,
Bulud kimi tutuldu... nə söyləsin yarına.

On bir yaş Zalın vardı, Zərnişan doqquz yaşda,
Səməd, Sədət uşaqdı... ana qəlbi təlaşda.

Yadları, doğmaları gözündə bir bilirdi,
Heysiyyəti, namusu müqəddəs pir bilirdi.

Ağsaqqal, ağbirçəklər burdadır Zal deyirdi,
Qızından, gəlinindən arxayın qal - deyirdi.

Hərdən xatırlayırdı Zülfü nənəm keçmişi,
Mənə də danışırdı olub-keçən çox işi.

Hünərinə böyüdü iki qardaş, bir bacı,
Qoymadı mən də çəkəm bu dünyada bir acı.

Ağılla böyüdülər Zərnişanın qızları,
Halallıqla yoğruldu xamırları, duzları.

Hər biri ev-eşikdir... nəvələr başdan aşır,
Xatirələr çağlayır, sözüm yaddaşdan aşır.

Yurd həsrəti apardı, nənəmi, Zərnişanı,
Hər gedənin özü də yurdun namı, nişanı.

Cəbrayıl şəhərində xoş gördüm Müzəyyanı,
Məni görcək sevindi... Əli olsun həyanı.

- Nə yaxşı səni gördüm, dayımın yerindəsən,
Dilimin əzbərisən, sözümün vərindəsən.

Səməd də qoçaq çıxdı, itirmədi zəhməti,
Gülləndi fərasəti, barlandı bərəkəti.

Böyütdü hünəriylə üç oğul, beş qızını,
Daşıdı axıracan tale yazan yazını.

# HAQQIN YOLU ANDIMIZ

## *Əli ibn Abu Talibə sonsuz sevgimlə və atamın xatirəsinə ehtiramla məsnəvi-poema*

Allahın nuru yağır simandan, sifətindən,
Kim sənə aşiq olsa, pay alar şöhrətindən.

Qoy oxusun söz bilən nə yazdım, necə yazdım,
Yazmasaydım deyərdim, ömrümü heçə yazdım.

Qanmayanın birisi söyürsə Nizamini,
Axı hardan biləcək sözümün nizamını.

Səməd Vurğun adına ağız büzən qanmazlar,
Eşq odunda yanana bir ürəkdən yanmazlar.

...Qəlbində Əli eşqi yenilməyən adamdan,
Söz açım, sözə gəlim qorxubilməz atamdan.

Bir Əli aşiqiydi bünövrədən, binadan,
Birüzlü, birsifətli doğulmuşdu anadan.

Zal adını uşağa Pəri nənəm vermişdi,
Özü böyük qızından nəvə payı dərmişdi.

Qundaqdakı körpəni göstərirlər ataya,
Qürurlanıb sevinir haqdan gələn butaya.

Dodağının altında pıçıltılar səslənir,
Duyğuları dilindən nəğmələnir, süslənir.

Pəri nənə soruşur kürəkəni Əzizdən,
Uşağa dediyini adı kimi əzizdən.

Gənc ata Əzizin də həya basır üzünü,
Asta-asta dillənir gizləsə də gözünü.

Mən Əliyə tapşırdım, zamin olsun balama,
Zamini Əli olsa, xətər gəlməz qalama.

Allahın sevgisi var Abu Talib oğluna,
Yenilməzlik bəxş edib özü qalib oğluna.

Əbu Talib oğlunu Əsədullah bilirdi,
Hər doğruya, düzə də inamından gəlirdi.

Mən də Əli eşqinə inamlıyam dinimdə,
Ruhum Əli adına uçunur bədənimdə.

Ay Zülfü, çox cavansan, çətin olar yaşamaq,
Çətin olar külfətin dərd yükünü daşımaq.

Namusun əmanəti, adına keşikçi dur,
Darda çağır Əlini... tənhalığa yar odur.

Əli eşqi qəlbindən çəkilməsin bir an da,
Sən eşq ilə çağırsan dada yetər hər yanda.

Üzün gülsün hər zaman, qəlbindən qan axsa da,
Qoy xar olsun xainlər, dərdin səni yaxsa da.

Ümidinin səngəri Zal olacaq biləsən,
Əli eşqi ona da təpər olar diləsən.

Zülfü nənəm deyirdi Əli yoldur bilənə,
Əzizin dedikləri vəsiyyət oldu mənə.

"Ya Əli, sən dada yet" çağırdım hər darda mən,
Əli adı çağırdım hər boranda, qarda mən.

Gedər-gəlməz apardı, Zaloğlu Əziz getdi,
O gündən ürəyimdə qəm göyərdi, dərd bitdi.

On bir yaşlı oğluma baxırdım ümidlə mən,
Zal balam da böyüyər, çıxaram mən də qəmdən.

Babasının adı da atasından qalmışdı,
Adı ilə hünəri bir əmanət almışdı.

Evə qazanc gətirdi, hələ uşaq yaşında,
Atasından qalanı yaşatdı yaddaşında.

Qətiyyəti dilində, Əli hökmü səsində,
Əli eşqi yanırdı qəlbində, nəfəsində.

Qoruyurdu yazığın, kimsəsizin haqqını,
Qoruyurdu verdiyi hər bir sözün haqqını.

Onun olduğu yerdə göz suyulub axmazdı,
Kimsənin qadınına kimsə əyri baxmazdı.

Dağa, arana köçdə sərkar Zalın özüydü,
Qaranı, ağı seçən onun iti gözüydü.

Böyük oğlu Yaşasif sönməyən bir çıraqdır,
Xeyir, istək, xoş dilək əməlində soraqdır.

Hər qardaşa, bacıya ağsaqqallıq eləyir,
Hər açılan qönçəyə xeyir, uğur diləyir.

Böyük eldir, nəsildir Səmədin övladları,
Hörmət ilə çəkilir el içində adları.

Zal adını hər biri ocaq bilir, pir bilir,
Zal adı çəkiləndə gözlərinə nur gəlir.

Sədət yaxşı oxudu, ali təhsil də aldı,
Hörmətə qalxdı adı, el içində ucaldı.

Məktəbin direktoru işlədi uzun illər,
Sözünün qabağında dil-dil ötməzdi dillər.

Saray kimi evinin qonağı axın-axın,
Dili ilə edərdi uzaq yolu çox yaxın.

Sözü keçərli idi divan-dərə yanında,
Çətin asan olardı sözünün bəyanında.

Mənə də işıq oldu ömrümün ilk çağları,
Ona güvənib aşdım neçə-neçə dağları.

Ürəyimdə adına sevgimin sonu yoxdur,
Eşqin gözlə görünən libası, donu yoxdur.

Onun da övladları yurdun adı, sanıdır,
Ya doğmanın, ya yadın çətində asanıdır.

Ruhun şad olsun, babam, Zal yolunu qorudu,
Özü haqqa tapındı, haqqın yolu durudu.

Ey oxucum, sanma ki sözüm burda bitmişdi,
Xəyalımın köhləni çox uzağa getmişdi.

Qayıdıram nənəmin söhbətinə yenə mən,
Doğrunu meyar bildim... vicdana mən, dinə mən.

*(Davamı 6-cı səhifədə)*

*(Əvvəli 5-ci səhifədə)*

Nağıl hələ bitməyib, nənəm usta danışır,
Almalar göydən düşmür, asta-asta danışır.

Zal elə oğul idi, qəzəb səsi gələndə,
Oğru-əyri titrəyər... görünməzdi bələndə.

Cızığından çıxanın batırdı səsi-ünü,
Zalın olduğu yerdə qara gələrdi günü.

Hələ evlənəndə də hünərlə aldı qızı,
Çox iştahlar içindən şahintək çaldı qızı.

-Ay nənə, hardan idi bu cəsarət atamda,
Bir kimsəsiz cavanda, bir arxasız adamda.

Gözləri dolan nənəm xəyala gedib bir an,
Xəyallanıb deyərdi burda hələ bir dayan.

Atası tapşırmışdı Həzrət Əliyə onu,
Əli eşqi, sevdası qoruyurdu ruhunu.

Gəlinim Tovuzun da bəxtinə yaz gətirdi,
Yeddi oğul, iki qız könlünə naz gətirdi.

Anam Tovuz Firəngiz qəlbən sevib ərini,
Onun ilə bir açıb dan üzü səhərini.

Anam özü deyirdi, çox davaya girirdi,
Çox işlərə baş qoşur, sinəsini gərirdi.

* * *

Yenə yönüm, qibləmdi Xələflinin dağları,
Ayrılıqdan saralıb gülü solmuş bağları.

Adam-adam danışan qayalara baxıram,
Ayrılıqla ağlayıb həsrətimlə axıram.

Kol-kos basmış cığırlar yaddaşımı bəzəyir,
Yara-yara duyğular yanmış daşa bənzəyir.

Xəyalımda canlanır Xələfli adam-adam,
Hardasan bir cavab ver, səs-küylü odam, odam.

Yaddaşıma gəl deyir... qan qırmızı kaşılar,
Əl-əl qalxıb oyanır, dillənir baş daşılar.

Atamın ünvanına kimin sözü, ünü var,
Mən açmağa borcluyam, sözün də düyünü var.

Məmmədhəsən dayının doğruluğu bəllidir,
Yaxşı bilir, dünyanın işləri get-gəllidir.

Günəşlidə görüşdüm, Dədə Günəş yurdunda,
Ağrısını çəkirdi torpağında, yurdunda.

Söz açıldı danışdıq dönüb keçən günlərdən,
Xatirələr çözüldü toylardan, düyünlərdən.

Özü sözü gətirdi, atamdan söhbət açdı,
Elə bil gözlərindən od çıxdı, işıq saçdı.

Amma sakit danışdı, təmkinini pozmadı,
Hər nə söhbət oldusa, bir pisliyə yozmadı.

Dedi yazansan axı, qələmin var əlində,
Düz sözü əyri yazsan, söz güllənməz dilində.

Sənin atan bir elə arxa-dayaq olmuşdu,
Aran-yaylaq yolunda sərvaxt, oyaq olmuşdu.

Sən də onun adına layiq olan sözü yaz,
Nəsil-nəsil sönməyən ocağı yaz, közü yaz.

Onun Əli sevgisi haqdan gəlmə iş idi,
Bu dünyadan Zal keçdi, bu da bir gərdiş idi.

Məkanın cənnət olsun, Qara əmi, nə deyim,
Xatirənə, ruhuna təzim edim, baş əyim.

Oğlu Zakir dostumdur, nəvə Ramil əzizim;
Harda Əli adı var, biz əsgərik, əzizim.

Səməd əmim deyəni burda yada salmasam,
Sözüm məndən inciyər, qayğısına qalmasam.

On adamın önündə Zal təkcə dayanardı,
Üstünə ağac çəkən qanına boyanardı.

Yaylaqda dava düşdü, ermənilər yeridi,
Zal doldu ağacına... heç durmağın yeridi?

Ağacı qılıncıydı, bəlgəsi də qalxanı,
Hər zərbəsi yıxardı tərpənəni, qalxanı.

# HAQQIN YOLU ANDIMIZ

## *Əli ibn Abu Talibə sonsuz sevgimlə və atamın xatirəsinə ehtiramla məsnəvi-poema*

Deyirdi qorxma məndən, Əli tək dayağım var,
Yatmayan qara çuxam, bəxtimə oyağım var.

- Necə oldu rəy verdin, soruşurdum, ay ana?
- Bu sualı verməzlər könlü sevən, duyana.

Sonra da fikrə gedər, bir az xəyala dalar,
Məmmədhəsən dayının sözünü yada salar.

Anam qardaş bilirdi Məmmədhəsən dayını,
Ondan gizlin tutmurdu, harayını hayını.

Anamın anasının oğulluğu, düz adam,
Düzlükdə, doğruluqda tay olmazdı yüz adam.

İlham mənə yaz deyir, sözüm dönüb ac qurda,
Kağız yazı gözləyir, qələm neyləsin burda.

Şahiddən yadda qalan... anamın öz dediyi,
Yaddaşında olanı eyləyir söz... dediyi.

Bir gün xəlvət söylədim Məmməd Həsən qağaya,
Dedim sənə sözüm var, bir bəri gəl, qağaya.

Bir gün dedim, ay qağa, Zal məni gözdən qoymur,
Adım düşmür dilindən, söhbətdən, sözdən qoymur.

-Sən də uşaq deyilsən, gərək düzü görəsən,
Niyyəti düz olana doğru cavab verəsən.

-Axı qorxuram, dedim, deyirlər sərt adamdır,
O da güldü, söylədi, Zal igid, mərd adamdı.

Bəxtinə belə igid bir də hardan çıxacaq,
Zal kimi oğul hardan, yoxdan-vardan çıxacaq?

Məmmədhəsən qağamın sözünü haqdan bildim,
Bəxtimə doğan günü haqdan, soraqdan bildim.

Beləcə bu dastanın yüz adda nağılı var,
Neçə-neçə acısı, şirini, noğulu var.

Neçə Əli adında oğul doğan anamın,
Nağılını qurtardım dərdi boğan anamın.

-Atandan nə yazmısan adına uyar olsun,
Tanıyan, tanımayan ondan xəbərdar olsun.

Dedim hələ vaxtım var, bir gün olar, yazaram,
Axır ki, zaman gələr, könlüm dolar, yazaram.

Məmməd Həsən dayı da sözünə davam edir,
Qayıdır o illərə, yolu inamla gedir.

- Deyirdim tək olanda davaya girmə, ay Zal,
Bilmirsən harda, necə, qəfildən gəlir zaval.

Deyirdi tək deyiləm, kürəyimdə Əli var,
Ürəyimdə eşqi var, ağacımda əli var.

İgidlik, qəhrəmanlıq deyilsə, bunlar nədir,
Torpaq yağı əlində... ürəkləri göynədir.

Qəşəm, Şəmşid... oğullar atadan nam-nişandır,
İnsanlığa yaraşan şərəfdir, şöhrət, şandır.

"Bir Xələfli var imiş..." əsərim bir bitikdir,
Məmmədhəsən dayının adına pir bitikdir.

Bitiklər daş yazısı, zaman-zaman pozulmaz,
Söz bilən yaxşı bilir, hər qələmlə yazılmaz.

Quşçulara getmişdim, bulağa salam dedim,
Şəhid çinara baxdım, pöhrəyə balam dedi.

Məmmədhəsən dayıdan yurda xəbər apardım,
Ruhunu aram bilsəm, mən təskinlik tapardım.

* * *

Aslan oğlu Qaradan bir kəlmə yada salım,
Yaxşıların dilindən sözümü dada salım.

Ad ilə deyilərdi Qaranın da düzlüyü,
Bitməz bir xəzinədir, düşüncəsi, sözlüyü.

Həmişə hörmət ilə danışardı atamdan,
Sanki xəbər verirdi, könül evi odamdan.

Gördüm xəstəxanada bir gün Qara əmini,
Gördüm ki, qərq eləyib qasırğalar gəmini.

Ermənilər sonralar yanırdılar az qala,
"Əli kimdir bilmədik, o kömək etdi Zala".

Onda Zalın köməyi özünün inamıydı,
Çağırdığı sidq ilə sözünün inamıydı.

* * *

Xələflilər qoçaqdı, harda olsa, yazmışam,
Adım qalsa, nə qəmdir, sözüm qalsa, yazmışam.

Xələflinin adıdır dildə gəzən kişilər,
Dost yolunda borana, qara dözən kişilər.

Öz elinin adına şərəf, şöhrət olanlar,
Zaman-zaman yaşayar, dastanımda qalanlar.

Gözlərimin önündə sinema pərdəsi var,
Hər kadrdan bir nəzər, şimşək çaxar, od yaxar.

Gözlərimlə gəzirəm hər nəzərdən bir nişan,
Sözə gəlsin duyğular, misralansın şöhrət-şan.

Atamın dedikləri yaddaşımdan gül dərir,
Hər adın ünvanına atam salam göndərir.

- Dizi bərk Fətiyalı... bir naxış adamıydı,
Sözü bütöv, mərdanə, sərt baxış adamıydı.

Kürəyimdə durdusa, bilirdim ki, qaladır,
Bilirdim ki, mərd, qorxmaz, qorxubilməz baladır.

İmrəlioğlunu mən belə gördüm çətində,
Gözünü də qırpmazdı şişə çəksən ətin də.

Deyirdim ki, bərk dayan, kimsədən qorxum yoxdur,
Baxmazdım sayına mən, deməzdim düşmən çoxdur.

Fətiyalı əminin sözü də yadımdadır,
Sözündəki yanğısı, közü də yadımdadır.

Zal kimi oğulları analar tək-tək doğar,
Doğru-düzü deməsəm, göydən yerə qan yağar.

*(Davamı 7-ci səhifədə)*

# HAQQIN YOLU ANDIMIZ

## *Əli ibn Abu Talibə sonsuz sevgimlə və atamın xatirəsinə ehtiramla məsnəvi-poema*

*(Əvvəli 6-cı səhifədə)*

Qəlbində Əli eşqi, varlığında od vardı,
"Ya Əli" sədasıyla dilində bir ad vardı.

Erməni dığaları töküləndə üstünə,
"Ayə bərk dur" bağırıb, yeriyirdi qəsdinə.

Kim Əliyə tapınsa yenilməzdir, deyirdi,
Kim Əliyə güvənsə, danılmazdır - deyirdi.

Əli eşqi qəlbində od idi, atəş idi,
Əli nuru canında sönməyən günəş idi.

Zülfüqar qılıncıydı Zalın sözü meydanda,
Halallıqda bəlliydi, tanınırdı hər yanda.

Fətiyalı əmidən qalan sözün işığı,
Bir sazın tellərində dilləndirər aşığı.

Müdriklərdən söz qalar, igidlərdən ərənlik,
Zaman-zaman yaşayar görkəzməlik, görənlik.

Oğlanları Kazımın, Nazimin hər birində,
Ata yolu yaşayır, sözündə, təhərində.

Hələ Məmməd bir aləm, İmranlı da mərdyana,
Hər biri bir kitabdır, oxuyana, duyana.

Ataların dostluğu oğullarda yaşayar,
Atalardan qalanı mərd oğullar daşıyar.

Yaddaşımdan zamanın karvanı ötüb keçir,
Bu hekayət bu yerdə sözümdən bitib keçir.

İmrəli dərəsindən hər ötəndə baxıram,
Ulularn adından şimşək olub çaxıram.

Xələflilər Əlini qəlblərə hakim bilib,
Sarsıntıda, kədərdə adını həkim bilib.

Hər kəsin ürəyində Əli eşqi çağlayıb.
Şərə gedən yolları inam kəsib bağlayıb.

Əlidən boylanırdı atama el segisi,
Könüllərdə çağlayıb sönməyən dil sevgisi.

Atamın dostu idi Əsədli Balakişi,
Etibarda bir idi, bütöv idi hər işi.

Söz düşəndə deyərdi, tanıyıram mən Zalı,
Gözünə güllə sıxsan, dəyişməzdi heç halı.

Maral oğlu Xasayın, Alməmmədin... hər biri,
Atama verərdilər doğru-düzgün dəyəri.

Alməmmədin bir sözü: "İgidlikdə tək ərdi,
Zal daşa hökm eləsə, daş özü yeriyərdi".

Maral oğlu Xasay da açıq qəlblə deyərdi,
"Qeyrət-namus adamı"... qürur ilə öyərdi.

Ziyadxan oğlu Qüdrət - mərdlərin mərdi kişi,
Haqqı, düzü söyləmək onun sözü, vərdişi.

"Hayıf Zaldan" deyirdi, apardı yurdun dərdi,
El yolunda nə desən... ölümə də gedərdi.

Vəli oğlu İslamın sözü də məndə qalıb,
Deyirdilər görənlər hünəri haqdan alıb.

Nemət oğlu Saydamın yolunu çoxu getməz,
Zoruna, zərbəsinə kimsənin əli yetməz.

Sevgili bir insandı, xalamın əri Saydam,
Atama da dost idi igid səngəri Saydam.

Asta-asta danışıb keçmişə yön tutardı,
Deyərdin vaxtı yetmiş sünbüldən dən tutardı.

Danışaram, deyirdi hardan desəniz ordan,
Görərsiniz keçmişi sözdə axar-baxardan.

Mən Zalı tanıyanda özüm hələ gənc idim,
Demə sakit idim, ya da fağır, dinc idim.

Mən igidlik görəndə canım cuşa gəlirdi,
Deyirdim hünər, qeyrət daşdan-daşa gəlirdi.

Dinləyirəm sözünü, duyuram nəfəsini,
Həmin uzaq günlərdən yel gətirir səsini.

"Ya Əli" sədasıyla zərbəsi bir enərdi,
Haqsızlığı görəndə boz sifəti dönərdi.

Nə çoxdu söz bilənlər, şahid olub görənlər,
Xatirədən, yaddaşdan doğru-düzü dərənlər.

Şahidlər nə demişdi, böyütmədim yox yerə,
Bilirəm şəkkaklar da yozacaqlar çox yerə.

Fikrimin, düşüncəmin yekunu... hər kəs bilsin,
Oxuyanlar yazımı haqdan gələn səs bilsin.

* * *

Əzizim Xələflilər, sizə sevgi payım var,
Adınızı çağıran payım var, harayım var.

Ha yazam, ya yaradam sözüm bitmir hələ də,
Sözümü qurtarmaram son nəfəsim gələ də.

Nəyi yaza bilməsəm baş daşıma baxın siz,
Daş gözümdən süzülən göz yaşıma baxın siz.

Əli gücü, qüdrəti təpər oldu sözümə,
Əli eşqi, nuruna yol açıldı üzümə.

Bu yerdə sinəm üstə söz xalısı toxundu,
"Canım Əli" adında bir nəğmə də toxundu.

Hər ürəkdə, diləkdə bitəsən, canım Əli,
Kimsəsizin dadına yetəsən, canım Əli,
Bilirəm ötələrdən ötəsən, canım Əli,
Gözümdə, bəbəyimdə titəsən, canım Əli,
Bir alaya qabaqsan, çətəsən, canım Əli.

Allahdan gələn nursan, gözəllər gözəlisən,
Min xəzan gələ, keçə, demərəm xəzəlisən,
İnsanlığın haqqına, xeyirə düz Əlisən,
Yaxşılıqlar təməli, xoşluqlar əzəlisən,
Cəmi uca adlara atasan, canım Əli.

Qaranı suya çəkdim, heç ağa boyanmadı,
Kimliyimi çox dedim, nadanlar soy anmadı,
Qara çuxam çox yatdı, çağırdım oyanmadı,
Üz döndərdi taleyim, yalvardım dayanmadı,
Məndən qaçan bəxtimi tutasan, canım Əli.

Payın alalı gəlməz, nökərlərə, bəylərə,
Adından işıq gələr şəhərlərə, köylərə,
Ümid yeri olmusan bizdən əzəl yeylərə,
Yaxşılara qanad ver, ucalansın göylərə,
Pisləri dünyamızdan atasan, canım Əli.

Sən əbədi solmayan, əməlində baharsan,
Yaxşı-pisi ayıran, düz ölçüsən, meyarsan,
Yeddi qat göy üzündən kim diləsə anarsan,
Xələfli düzdə qalmaz, harda olsa, sən varsan,
Adına, ünvanına butasan, canım Əli.

### *Epiloq əvəzi*

### DOSTUMA BİR MƏKTUB

Sünbülümdən nələr dilədi könlüm,
Sovurdu dənimi, elədi könlüm,
Dəli sevdalara salıb başımı,
Məni qovğalara bələdi könlüm.

Dedim ki, ey könül çağırma məni,
Verməzlər bizlərə çölü, çəməni...
Sevməyən bir ürək neyləyir axı,
Kədərdə yuyunub, qəmdə çiməni...

Ey külək, bir dayan, sovurma qarı,
Yerindən uçurma sən yarpaqları...
Qoy öz budağından düşdüyü yerdə,
Çürüyüb torpağa qarışsın barı.

Ey könül, dağına, düzünə söylə,
Danışsan küləyin özünə söylə,
Eşqimin alovu səngisə yenə,
Qoy məni aparsın közünə söylə.

Ey könül, sinəmdə dağları seyr et,
Vaxtsız xəzan vurmuş bağları seyr et,
Köksümdə güllənən lalələrə bax,
Ruhumda çağlayan ağları seyr et.

Salam olsun Vilayət, adına, ünvanına,
Sözüm ilə gəlmişəm mən haqqın divanına.

Deyirdin hər sözünü, mən istərdim köz görüm,
Mən sənin qələmində könül açan söz görüm.

Əziz dostum, nə deyim, ömür bitər, yol bitməz,
Havalanıb üz tutsan, ha gedəsən, çöl bitməz.

Bu dünyanın dərdləri bitməz mənim yazımla,
Versəm də ürəyimi payızımla, yazımla.

Sən məni çağırmısan sözün yanan bağrına,
İstəyin ovsun saldı, şərik oldum ağrına.

Xələfli, sözdə barın, ərkində ixtiyarın,
Allah səni qoruyar, qırılmasa ilqarın.

Əbədi bir eşqin var, sozalmayan nəğmədir,
Bu istək, bu sevgi də haqq üzündən gəlmədir.

Əkində zəhmət çəksən torpaq dəni unutmaz,
Nəfəs uçub getsə də, can bədəni unutmaz.

Əvvəlcə düşündüm ki, gücüm çatmaz yazmağa,
Gənclik eşqi gərəkdir hər mənanı yozmağa.

Ay Vilayət, dedin ki, hər nə yazsan qalacaq,
Aşiqliyin işığı qəlbinə nur salacaq.

- Dedim ki, cavanlar var, inamdan od alarlar,
Sözdə iman görsələr yazıdan ad alarlar.

Sən də dedin yox, qardaş, hər könüldə qor olmaz,
Hər aşiqin qəlbinə Allahdan pay - nur olmaz.

Aşiqliyin işığı sənə açar qucağı,
Könlündə alovlanar eşqin odu, ocağı.

Ruhuma tələş gəldi, ilhamım qanadlandı,
Söz məni közə tutdu, duyğularım odlandı.

Sədi də "Gülüstan"ı bir zaman belə yazıb,
Tova tutub öz dostu, bir şirin dilə yazıb.

Qəsidələr gülləndi, təxmislər cana gəldi,
Aşiqliyin işığı nur saldı, qana gəldi.

Fikirlərin dağını aşdım xəyal atında,
Allahın payı gəldi ilhamın baratında.

*(Davamı 16-cı səhifədə)*

KREDO

№ 06 (1262) 19 fevral 2025-ci il

# HAQQIN YOLU ANDIMIZ

## *Əbu ibn Abu Talibə sonsuz sevgimlə və atamın xatirəsinə ehtiramla məsnəvi-poema*

*(Əvvəli 7-ci səhifədə)*

*Epiloq əvəzi*

**DOSTUMA BİR MƏKTUB**

Dolandım göy üzündə, baxdım yerdə nizama,
Toqquşdum buludlarla, çaxdım yerdə nizama.

Xarabalar üstündən yana-yana keçdim mən,
İllərin dərd-qəmini öz sözümlə içdim mən.

Xocalının dağına gözlərimdən qan süzdü,
Kəsilməyən kişnərti yaddaşımda can üzdü.

Mənim əziz qardaşım, əzabıma qəm tutdun,
Qəlbimdən axan qana yana-yana cam tutdun.

Taleyimin rəngidir piyaləmdə hər sözüm,
Piyaləmin dadında Əli adı tər sözüm.

Sevgimdən körpü saldım Qarabağdan Şirvana,
Əmanət olsun sözüm yol üstündə karvana.

Bizi sözdən sorana salam olsun, Vilayət,
Yazdım "Bizdən qalana" kəlam olsun, Vilayət.

Xudafərin üstündən baxarsan Araz boyu,
Gözlərini oxşasın el toyu, oba toyu.

Əziz dostum, bu dünya pəncərədir, - deyiblər,
Ömür də bir süfrədir, dərdi, qəmi yeyiblər.

Bir gün olar gələrsən məzarımın üstünə,
Göy üzündən baxaram, dost yanğısı, tüstünə.

Nə soruşsan söyləyər baş daşımın özü də,
Ruhum sənə danışar hər kəlməni, sözü də.

Kitab-kitab nəzərim, gözüm qalar dünyada,
Dönər işığa, nura - közüm qalar dünyada.
Ürəyimin odudur, atəşidir hər sözüm,
Canımı aparsam da, sözüm qalar dünyada.

İllər ömür zəmisi, çin-çin biçib yığarsan,
Küləklərdə sovurub, dən-dən seçib yığarsan.
Bir gün gələr bilərsən, sənin deyil bu dünya,
Gözlərini dünyadan gün-gün keçib yığarsan.

Bulud-bulud tutulsa, dağlar başı çən varam,
Dalğalanan zəmidə dolu sünbül, dən varam.
Dan üzünə şeh gülər bir çəmənin üstündən,
Yaxşı baxsan görərsən, hər damlada mən varam.

Baxırdım gündoğana, üzümə səhər güldü.
Boylandım günbatana, könlümə qəhər güldü:
Necə getdı btmədim, vaxt ötdü, zaman keçdi,
Köhlənimin üstündə boş qalan yəhər güldü.

Açılar qönçə güllər, sonunda solar gedər,
Mən-mən deyən kimsənin sonu heç olar gedər.
Bizim dünva evinə kim gəlsə boş qayıtmaz.
Kədər olsun, ya sevinc, badəsi dolar gedər.

*17.02.2025*